# 1930-1950-ci illərdə Azərbaycan ibtidai məktəbləri üçün yeni tədris proqramlarının hazırlanmasını zəruri edən səbəblər

**Aytəkin Telman qızı Məmmədova**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent,*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** telmanaytekin_82@mail.ru

**Rəyçilər:** p.ü.e.d., prof. F.A. Rüstəmov,
p.ü.e.d., prof. İ.H. Cəbrayılov

**Açar sözlər:** məktəb, tədris planı, təhsil, məzmun, təlim metodu
**Ключевые слова:** школа, учебная программа, образование, содержание, методика обучения
**Key words:** school, curriculum, education, content, teaching methodology

30-cu illərdə Azərbaycan ibtidai məktəblərinin tədris planlarında ibtidai təhsilin xarakterinə və istiqamətinə uyğun olaraq uyğun olaraq yeni proqramlar tərtib edildi. İbtidai siniflərdə ayrı-ayrı fənlərin tədrisində öyrədiləcək bilik, bacarıq və vərdişlərin məzmunu, təlim materialının yerləşdirilməsi, I-IV siniflərdə öyrədiləcək məzmunun həcmi, mövzular və bəhslər (fəsillər) tədris proqramlarında öz əksini tapdı. Bu, əslində tədris proqramlarının tərtibinə klassik yanaşma idi. 30-cu illərdə yenidən aktuallıq qazanmasının əsas səbəbi Azərbaycan məktəblərində 1924/25-ci tədris ilindən "kompleks" təlim proqramının, sonra isə "layihələr" proqramının tətbiqi ilə bağlı idi. Bu proqramlar Azərbaycan məktəblərinə (şəhər və kənd məktəblərinə) ciddi şəkildə uyğunlaşdırılmadan tətbiq edildiyindən müəyyən problemlər yaranmışdı. Təbiət və cəmiyyət hadisələrini bütövlükdə, kompleks halında öyrənməyi nəzərdə tutan bu sistem elmlərin əsasını öyrənməkdə çətinlik yaratdı. Digər tərəfdən, əhalinin böyük əksəriyyətinin oxumağı və yazmağı bilməməsi, məktəbyaşlı uşaqların ibtidai təhsilə cəlb edilməsində problemlərin olması nəticəsində xarici təcrübə SSRİ-də, o cümlədən Azərbaycanda özünü doğrultmadı. Bu məsələ əvvəlcə, pedaqoq və metodistlər arasında ciddi fikir ayrılığına və diskussiyalara səbəb oldu. Az sonra ÜİK(b)P MK-nın 5 sentyabr 1931-ci il ("İbtidai və orta məktəb haqqında") və 25 avqust 1932-ciil tarixli ("İbtidai və orta məktəbdə tədris proqramları və rejim haqqında") qərarı nəşr olundu. Qərarda xüsusi olaraq bildirilirdi ki, "məktəbin ölüb getməsi" haqqında antilenin nəzəriyyəsindən doğan "layihələr metodu" adlanan metodu bütün məktəb işinin əsasına qoymaq təşəbbüsü məktəbi həqiqətdə dağılmağa doğru aparırdı" (1, s.36). Rəsmi dövlət qərarları təhsilin məzmununda əsaslı dəyişiklik edilməsini reallaşdırdı. Şagirdlərə "elmlərin əsasını" verməli olan, onları "nəzəriyyə vasitəsilə və təcrübədə istehsalatın bütün başlıca sahələri ilə" tanış etməli olan, "təlimlə məhsuldar əmək arasında sıx əlaqə" yaradan politexnik təlim kommunist tərbiyəsinin ayrılmaz tərkib hissəsi elan olundu. Təlimlə məhsuldar əməyin birləşdirilməsi üzrə işi elə aparmaq tələb edildi ki, şagirdlərin bütün ictimai-məhsuldar əməkləri məktəbin tədris və tərbiyə məqsədlərinə tabe etdirilmiş olsun. Proqramlarda təlim materialının fənn üzrə ayrılıqda və sistemli şəkildə tətbiq edilməsinin əsas səbəbi "məktəbdəki təlimin kifayət həcmdə ümumi təhsil biliyi verməməsi" (1, s.42) ilə bağlı idi.

İbtidai və orta məktəbdə metodik rəhbərliyin və intizamın zəif olması, məzunların elmlərin əsaslarını bilməməsi onların texnikumlara və ali məktəblərə daxil ola bilməsinə mane olurdu. Dövlət sənədində "ibtidai və orta məktəblər üçün buraxılmış tədris proqramlarının, xüsusilə

birinci dərəcəli məktəb proqramlarının xeyli yaxşılaşmış olduğunu, keçən illərin proqramlarına nisbətən bilik həcmi cəhətdən daha yüksək və tədris materialının yerləşdirilməsi cəhətdən daha mütəzəm olduğu" (1, s.43) qeyd edilsə də, "uşaqlar tərəfindən elmlərin əsasının həqiqətən, möhkəm və müntəzəm surətdə mənimsənilməsi, onların faktları bilməsi və düzgün nitq, yazı və riyazi təmrinlər və s. vərdişlər almalarını təmin etmək üçün" (1, s.44) ibtidai məktəblər üçün proqramların yenidən tərtib edilməsi tələb olunurdu.

Politexnik məktəbdə əmək təliminin quruluğuna böyük əhəmiyyət verildiyindən, əmək tədris proqramlarının da yenidən tərtib edilməsi vacib hesab edilirdi. Pedaqoji prosesə yeni yanaşmada əsas məsələ "tədris işi təşkilinin əsas forması, ciddi surətdə müəyyən edilmiş məşğələ cədvəli və möhkəm şagird heyəti olan müəyyən şagird qrupuna verilən dərs" (1, s.46) idi. Tədris prosesində daimi və məcburi briqadalar təşkil etmədən tədris işinin kollektiv formalarının inkişafı nəzərdə tutulurdu. Müxtəlif təlim metodları tətbiq etməklə, müəllimin rəhbərliyi altında hər bir şagirdin ümumi qrupda, briqadada və fərdi surətdə işləməsi dərs prosesinin tərkibi də həyata keçirilməli idi. 30-cu illərin əvvəllərində Azərbaycan Xalq Maarif Komissarlığı 1931/32-ci tədris ilinin ikinci yarısında istifadə edilmək məqsədilə yeni proqram tərtib etdi. Həmin proqramlarda müsbət meyllər nəzərə alınsa da, "kompleks" və "layihə" metodunun təsiri açıq-aydın hiss olunurdu. Bir il sonra nəşr edilən proqramlar politexnik məktəbin tələbləri nəzərə alınmaqla hazırlanmışdı. Yeni proqramların strukturundakı əsas dəyişiklik ibtidai məktəblərdə tədris olunan hər bir fənn üzrə sistemləşdirilmiş biliklərin həcminin dəqiq müəyyən edilməsidir.

Həmin proqramlarda şagirdlərin mənimsəməli olduqları biliklə yanaşı, həm də bacarıq və vərdişlərin həcmi müəyyənləşdirilmişdi. Həmin dövrdən başlayaraq məktəblərdə proqramlar hər fənn üzrə ayrılıqda tərtib olunur. Məzmun müxtəlif strukturlarda təqdimoluna bilər. Əgər 30-50-ci illərdə təlim materialı konsentrik və ya sistematik düzülürdüsə, sonralar yeni strukturlar meydana gəldi: xətti, konsentrik, spiralvari və qarışıq. Təhsilin məzmununun strukturunu seçən zaman, hər şeydən əvvəl, təlimin məqsədi, şagirdin öyrənmə səviyyəsinə verilən tələblər, mənimsəniləcək biliyin xarakteri və xüsusiyyətləri, şagird qrupunun xüsusiyyətləri nəzərə alınır. "Təlim materialının konsentrik düzülüşündə materialın sonrakı illərdə təkrarən keçilməsi nəzərdə tutulur, lakin materialın öyrədilməsi hər bir yeni konsentrdə bir qədər dərinləşdirilir və genişləndirilir" (2, s.104). Proqramların konsentrik qaydada düzülüşü "asandan çətinə" qaydasını yerinə yetirməyi nəzərdə tutsa da ümumiyyətlə əlverişli deyil, cünki təlim materialının təkrarən keçilməsi şagirdlər üçün əlavə yük olur, nəticədə təlimin keyfiyyəti aşağı düşür.

Təlim materialının proqramda sistematik düzülüşü təlimin sistematikliyi prinsipinə, həmçinin fənnin daxili məntiqi quruluşuna istinad edir. Burada təlim materialı ardıcıl düzülür, hər material özündən əvvəlkini tamamlayır və özündən sonrakı üçün əsas yaradır. Təlim materialının ayrı-ayrı hissələri bir-biri ilə sıx əlaqədə, fasiləsiz ardıcıllıqla, məktəb təlimi dövründə bir dəfə öyrədilir. Bu struktur tələb edir ki, ardıcıllığa, tarixiliyə, sistematikliyə, müvafiqliyə əməl edilsin.

30-cu illərdən başlayaraq proqramların düzülüşündə əsasən sistematiklik struktura üstünlük verilsə də, zəruri hallarda digər strukturlara da (konsentrizmə və s.) yer verildi. İlk dəfə olaraq tarix və coğrafiya proqramları yeniləndi. Tarix və coğrafiyanın tədrisi məsələləri İttifaq səviyyəsində müzakirə predmetinə çevrildi. SSRİ Xalq Komissarları Soveti və ÜİK(b)P MK-nın "SSRİ məktəblərində mülki tarixin tədrisi haqqında" 16 may 1934-cü ildə xüsusi qərar qəbul etdi. Qərarda məktəblərdə tarix dərslərinin keçilməsinin qənaətbəxş olmaması vurğulandı: "Dərsliklər və dərsin verilməsi mücərrəd, sxematik xarakter daşıyır. Mülki tarix

dərslərini canlı və maraqlandırıcı şəkildə keçmək, ən mühüm hadisə və faktları onların xronoloji ardıcıllığı ilə şərh etmək, tarixi xadimlərin xarakteristikasını vermək əvəzinə, şagirdlərə ictimai-iqtisadi quruluşların mücərrəd tərifləri verili, mülki tarixin əlaqəli şərhi mücərrəd sosioloji sxemlərlə əvəz olunur (1, s. 63). Tarix kursunun şagirdlər tərəfindən möhkəm surətdə mənimsənilməsi üçün ibtidai məktəblərdə SSRİ tarixinin ibtidai kursunun tədrisi vacib hesab olundu.

ÜİK(b)P MK-nın 9 iyul 1934-cü il tarixli qərarı ilə tarix dərslərinə III sinifdə 80 saat, IV sinifdə 40 saat vaxt ayrılmışdı. Burada ümumi tarixdən qısa məlumat verməklə SSRİ-nin ibtidai tarixinin tədrisi nəzərdə tutulurdu. Azərbaycan ibtidai məktəblərində 1939/40-cı tədris ilində III sinifdə ikinci yarımildə həftədə 3 saat, IV sinifdə birinci yarımildə 2 saat, ikinci yarımildə 3 saat tarix fənni tədris edilirdi. Azərbaycan ibtidai məktəblərinin III-IV siniflərində də ümumi tarixdən qısa məlumat verilməklə SSRİ tarixi (daha doğrusu Rusiya tarixi) tədris edilir, müttəfiq respublikaların, o cümlədən Azərbaycanın tarixinin tədrisi nəzərdə tutulmurdu.

SSRİ Xalq Komissarları Soveti və ÜİK(b)P MK-nın "SSRİ ibtidai və orta məktəblərində coğrafiyanın tədrisi haqqında" 16 may 1939-cu ildə xüsusi qərar qəbul etdi. Qərarda ibtidai və orta məktəblərdə coğrafiya dərslərinin keçilməsində yolverilən qüsurlar aşağıdakı kimi müəyyənləşdirilmişdi: 1) şərh etmənin mücərrəd və quru olması; 2) fiziki coğrafiya materialının azlığı; 3) xəritələrə zəif bələdlik; 4) coğrafiyanın tədrisinin siyasi-iqtisadi materialla və ümumi sxemlərlə yüklənməsi. Qərarda "ibtidai məktəblərdə (III və IV siniflərdə) coğrafiyanın tədrisində şərh etmənin daha da əyani, asan, populyar və maraqlı olmasına nail olaraq, şagirdlərin hafizəsində əsas coğrafi adların (ölkələr, çaylar, dənizlər, dağlar, şəhərlər və s.) möhkəmləndirilməsi və proqramda müəyyən edilmiş dairədə coğrafiya xəritəsini möhkəm bilmək" (1, s. 64 ) tələb edilirdi.

İbtidai məktəb proqramlarının xarakterik nöqsanlarını aşağıdakı kimi ümumiləşdirmək olar:

1) proqramların tədris materialı ilə həddindən artıq yüklənməsi;

2) ayrı-ayrı proqramlar arasında əlaqənin (fəndaxili və fənlərarası) zəif olması;

3) bəzi tədris materialının şagirdlərin yaş və fərdi xüsusiyyətlərinə uyğun olmaması və s.

Tədris plan və proqramlarının tez-tez dəyişdirilməsi məktəb həyatına pis təsir göstərir, məktəbdə elmlərin əsaslarının öyrədilməsində sabitlik və müntəzəmlik pozulurdu. Elə buna görə də SSRİ məktəbləri arasında unifikasiya zəruri prosesə çevrilmişdi. Vahid təhsil məkanının formalaşmasında bu, olduqca vacib bir iş idi.

20-ci illərdə olduğu kimi, 30-50-ci illərdə də ibtidai təhsilin məzmununun təkmilləşdirilməsinə ciddi fikir verilirdi. Belə ki, məktəbin ilk dörd sinfində şagirdlərə ibtidai, lakin orta təhsil nöqteyi-nəzərindən zəruri olan bilik, bacarıq və vərdişlər verilir. İbtidai təhsilin əhəmiyyəti ondan ibarətdir ki, yeddiillik və onillik ümumi və politexnik təhsili müvəffəqiyyətlə tamamlamaq üçün şagirdlərdə əsas yaradır və onları elə bilik, bacarıq və vərdişlərlə silahlandırır ki, bunsuz yuxarı siniflərdə təhsil almaq mümkün deyildir. Ana dili ilə bağlı proqramlar elə tərtib olunub ki, şagirdlər oxu və yazı vərdişləri qazanır, qrammatikaya dair ilkin məlumat alırlar. I-IV siniflərdə şagirdlər ana dili üzrə sərbəst, düzgün və ifadəli oxu vərdişi, öz fikirlərini şifahi və yazılı şəkildə ifadə etmək vərdişi kəsb edirlər. Azərbaycan və rus ədəbiyyatına dair öyrəndikləri bədii parçalar onların dil qabiliyyətlərinin inkişafına xidmət edir. II–IV siniflərdə rus dili üzrə şagirdlərə oxu və yazı vərdişləri öyrədilir, onların söz ehtiyatları artırılır, şifahi danışıq vərdişləri yiyələnmələrinə çalışılır. I-IV siniflərdə hesab üzrə ibtidai məlumatlar verilir. Şagirdlər hesabın ən mühüm hissəsini təşkil edən saymaq və hesablamağı bu illərdə öyrənirlər. Burada şagirdlərə tam ədədlər üzərində hesab əməliyyatları öyrədilir. Kəsirlər haqqında ilkin məlumat verilir. İbtidai məktəblərdə məsələ həllinə xüsusi diqqət verilir. Bu yolla şagirdləri

mürəkkəb hesab əməliyyatına başa düşməyə və həmçinin gələcəkdə cəbr və həndəsəni başa düşməyə hazırlamaq nəzərdə tutulur.

İldə ibtidai məktəblərin tədris proqramları müəyyən dərəcədə təkmilləşdirilərək yenidən nəşr olundu.

50-ci illərdə fənn proqramlarına verilən tələblər müəyyənləşdirildi. Bu tələblər ümumtəhsil məktəblərində tədris olunan bütün fənlərə aid idi. Tədris proqramlarına pedaqoji-psixoloji tələblərin müəyyənləşdirilməsi o dövrdə pedaqoji-psixoloji tədqiqatların uğurlu cəhəti kimi qeyd olunmalıdır. Tədris proqramları ilə bağlı pedaqoq və psixoloqların müəyyənləşdirdiyi didaktik tələblər aşağıdakılar idi:

- proqramın tədris planı əsasında tərtib edilməsi;
- proqramda müəllim üçün konkret göstərişin verilməsi;
- elmdə mübahisəli olan məsələlərin proqrama daxil edilməməsi;
- proqrama elmin ən aparıcı müddəaları və əsas anlayışlarının daxil edilməsi;
- proqramın məzmununun metodoloji cəhətdən sağlam və elmi olması, elmi biliklərin təhrif edilməsinə və saxtalaşdırılmasına yol verilməməsi;
- proqramın tərtibində nəzəriyyə ilə təcrübənin, təlim materiallarının cəmiyyət quruculuğu təcrübəsi ilə əlaqələndirilməsi;
- proqramın tərtibində sistematiklik və ardıcıllığa əməl olunması;
- proqram materialının məzmununu, şagirdlərin yaş və anlaq səviyyəsinə uyğun olması;
- proqramın tərtibində ayrı-ayrı fənlərin qarşılıqlı təbii əlaqəsinin təmin edilməsi, fənlərarası və fəndaxili əlaqənin nəzərə alınması (6, s. 258).

Ümumtəhsil məktəb şagirdlərini həyata və əmək prosesinə hazırlamağın ən yaxşı yolu tədris planında əmək təliminə verilən saatların artırılması oldu. Həm III-IV siniflərdə, həm də V-VII siniflərdə həftədə 1saat əmək və praktik məşğələlər artırıldı. 50-ci illərin ikinci yarısından başlayaraq bu tendensiya tədricən dəyişməyə başladı, məktəblər politexnik təhsil əsasında yenidən quruldu. Tədris proqramları politexnik təlimin tələblərini nəzərə almaqla yenidən işləndi. İbtidai məktəblərin tədris planında əmək təlimi və ictimai-faydalı əməklə bağlı fənlərin tədrisində ibtidai siniflərdə şagirdlərə sadə əmək alətlərilə işləmək bacarığının aşılanması, şagirdlərə elmi biliklərlə bağlı əmək vərdişləri verilməsi ön plana çəkildi. Politexnik təlim Azərbaycan məktəblərində kütləvi xarakter aldı.

**Məqalənin aktuallığı.** Tədris proqramlarına pedaqoji-psixoloji tələblərin müəyyənləşdirilməsi o dövrdə pedaqoji-psixoloji tədqiqatların uğurlu cəhəti kimi qeyd olunmalıdır.

**Məqalənin elmi yeniliyi.** Tədris plan və proqramlarının tez-tez dəyişdirilməsi məktəb həyatına pis təsir göstərir, məktəbdə elmlərin əsaslarının öyrədilməsində sabitlik və müntəzəmlik pozulurdu.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Müxtəlif təlim metodları tətbiq etməklə, müəllimin rəhbərliyi altında hər bir şagirdin ümumi qrupda, briqada da və fərdi surətdə işləməsi dərs prosesinin tərkibində həyata keçirilməli idi. 30-cu illərin əvvəllərində Azərbaycan Xalq Maarif Komissarlığı 1931/32-ci tədris ilinin ikinci yarısında istifadə edilmək məqsədilə yeni proqram tərtib etdi.

## Ədəbiyyat


1. Məktəb və müəllim haqqında partiya və hökumətin qərarları. Bakı: Azərnəşr, 1952.
2. Mehdizadə M. və b. Pedaqogika. I hissə. Bakı, V.İ. Lenin adına APİ, 1958.
3. Rəhimli M. Yeni proqramlar haqqında // Kommunist tərbiyəsi uğrunda, 1932, № 9, s. 2-5
4. Hüseynov Ə. Kütləvi məktəblər proqramı barəsində // Kommunist tərbiyəsi uğrunda, 1932, №4, s. 64-65
5. Zərgərli. Bir dərəcəli məktəbin proqramı neçə olmalıdır? // Kommunist tərbiyəsi uğrunda, 1938, № 2-3, s. 51-55
6. Rüstəmov F. Azərbaycan pedaqogikaşünaslığı. Bakı: Elm və təhsil, 2016, 888 s.


**А.Т. Мамедова**

## Причины разработки новой учебной программы для начальных школ Азербайджана в 1930-1950 гг.

## Резюме

В 1930-1950 годах были разработаны новые программы в соответствии с учебной программой начальных школ Азербайджана. Программа содержит содержание знаний и навыков, которые будут преподаваться при преподавании различных предметов в начальных классах. С 1924/25 учебного года это было связано с реализацией «комплексной» учебной программы, а затем «проектов».

**A.T. Mammadova**

## Necessary Reasons for New Curriculum Development for Azerbaijani Primary Schools in 1930-1950

## Summary

In 1930-1950 new programs were developed in accordance with the curriculum of Azerbaijani primary schools. The program reflects the content of the knowledge and skills that will be taught in different subjects in the elementary grades. From the 1924/25 academic year it was associated with the implementation of a ‘comprehensive’ training program and then ‘projects’.

**Redaksiyaya daxil olub:** 30.01.2020